# ELMİ ZİRVƏYƏ APARAN YOL

1931-ci ildə yaradılmış indiki Azərbaycan Respublikasının Təhsil İnstitutunun əsası 1932-ci ildə **Aspirantura şöbəsi** kimi yaradılan hazırki **Elmi-pedaqoji kadr hazırlığı şöbəsi** öz işini "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa (2009-cu il), Elm haqqında Azərbaycan Respublikasının Qanununa (2016), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 01 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş Doktoranturaların yaradılması və doktoranturaya qəbul qaydalarına, İnstitutun Nizamnaməsi, şöbənin əsasnaməsi və illik fəaliyyət planına əsasən qurur.

Qloballaşma insanların təfəkkürünün varlığın yeni reallıqlarına uyğunlaşmasını irəli sürür, geniş miqyaslı informasiyanı təhlil edə bilərək operativ qərar qəbul edən, dövlətin bir çox vacib sahələrinin gələcəyini müəyyən edə bilən yeni nəsil kadrların hazırlanmasını diktə edir. Bu şəraitdə ali təhsil sistemi xüsusi funksiya yerinə yetirir, çünki təhsil siyasəti elə şəkildə yenidən qurulmalı olur ki, informasiya-texnoloji, texniki, mədəni sahələrdə innovasion proseslərin artan sürəti şəraitində düzgün istiqamət götürmək qabiliyyətinə malik olan mütəxəssislər hazırlana bilsin.

İnformasiya texnologiyalarının güclü inkişafı ümumilikdə keçmişə münasibətdə hadisələrin başvermə sürətinin yüksək səviyyədə artması ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev hələ keçən əsrin 70-ci illərində informasiya texnologiyalarının inkişafının insan həyatında mühüm dəyişikliklərə səbəb olacağını hiss edərək bu sahəyə xüsusi diqqət yetirmiş və bugünkü inkişafın təməlini qoymuşdur. Heydər Əliyev demişdir ki, dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Doğrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar.

XXI əsrin başlanğıc illərində siyasi və iqtisadi sahələrdə Azərbaycanın potensialının güclənməsi əhalinin rifahının yüksəlməsinin əsas şərtlərindən biri oldu. Qloballaşma yolu ilə gedən müasir dünya qarşısında duran beynəlxalq rəqabətə tez uyğunlaşmaq bacarığı, onun uğurlu və davamlı inkişafı da mühüm əhəmiyyət kəsb edən amillərdən biridir. Yüksək səviyyədə inkişaf etmiş ölkələrin rəqabət üstünlüyü başlıca olaraq təhsillə müəyyənləşən insan potensialının inkişafı

ilə bağlıdır. İndiki zamanda ölkəmizin iqtisadi inkişafının təminatı məhz bu sahə ilə sıx əlaqəlidir. Hazırda ölkəmizin bütün sahələrində olduğu kimi, təhsil sahəsində də sürətli dəyişikliklər baş verir. Lakin hələ həll olunmalı bir sıra problemlər qalmaqdadır. Onların həlli yollarını əvvəlcədən görmək çətindir. Çünki əldə olunan bilik sürətli dəyişikliklərə görə tez bir zamanda köhnəlir, bu səbəbdən bilik və təhsilin paradiqması dəyişilir. Məhz bu deyilənləri nəzərə alıb deyə bilərik ki, insanların əldə etdiyi ali təhsil bilikləri də müəyyən dəyişikliklərə uğrayır. Aktual məsələlərdən biri də indiki dövrdə universitetlərdə müasir tələblərə uyğun yeniliklər və beynəlxalq rəqabətə dözümlülük yaratmaqdır. Bunu nəzərə alan dövlətimiz dünyanın bir çox nüfuzlu ölkələrində olduğu kimi, ali təhsil sahəsinə diqqəti daim artırır.

Azərbaycanın vahid Avropa təhsil məkanına daxil olması bir tərəfdən tədris-təhsil modellərinin müasir tələblərə uyğunlaşdırılması, digər tərəfdən isə Azərbaycanın formalaşmış təhsil sisteminin etik-mədəni özünəməxsusluğunun saxlanmasını bir zərurət kimi irəli sürdü. Bu məqsədlə təhsil sisteminin bütün sahələrində vəziyyətin təhlili, mühüm faktorların nəzərə alınması qloballaşma proseslərinin intensivləşdiyi şəraitdə Azərbaycanın ali təhsil sisteminin modernləşdirilməsinin əsas zəmini oldu.

III minilliyin əvvəllərində planetin ictimai-siyasi, iqtisadi, elmi və mədəni həyatının müxtəlif sahələrində dünyada yaranmış situasiyanın bütün ciddi təhlilləri, bir çox aparıcı alimlərin fikrincə, dövrün əsas məzmununu təşkil edən qloballaşma kontekstində aparılır. Söhbət artıq sosial mövcudluğun ənənəvi milli dövlət qurumları çərçivələrinə sığmayan, keyfiyyətcə yeni ümumiliyindən gedir.

Təhsil xərclərinin ilbəil artması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsili dövlət siyasətinin əsas prioritetlərindən biri hesab etməsi ilə birbaşa bağlıdır. "Təhsil əsri" elan edilən XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşması və güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmamışdır. Prezident bununla bağlı belə deyir: "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının təhsilə diqqəti və qayğısı sayəsində hazırda təhsil sistemində əsaslı islahatlar həyata keçirilir, müxtəlif problemlər üzrə Dövlət Proqramları yerinə yetirilir. Bunların içərisində 31 yanvar 2008-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası", 22 may 2009-cu il tarixli sərəncamı ilə təsdiq olunmuş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı", "Təhsil sisteminin informasiyalaşdırılması Proqramı (2008-2012-ci illər)", 4 may 2009-cu il tarixli sərəncamı ilə təsdiq olunmuş "Elmin inkişafı üzrə

Milli strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı (2009-2015-ci illər)" xüsusi yer tutur.

Təhsilin və elmin inkişafı proqramları sahəsi üzrə fəaliyyət "Təhsil haqqında", "Elm haqqında" Azərbaycan Respublikasının Qanunlarına, Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnaməyə və digər normativ-hüquqi aktlara əsaslanır.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"ndan irəli gələn tədbirlərin həyata keçirilməsi istiqamətində fəaliyyətin aparılması, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün tipdən olan təhsil müəssisələrində təhsilin keyfiyyətinin qiymətləndirilməsinə dövlət nəzarətinin həyata keçirilməsi, fəaliyyət sahəsinə aid normativ–hüquqi sənədlərin işlənilib hazırlanmasında iştirak edilməsi, dövlət təhsil standartlarına uyğun olaraq monitorinq və qiymətləndirmələrin həyata keçirilməsi, təhsilin keyfiyyətinin qiymətləndirilməsi texnologiyasının işlənməsi və təkmilləşdirilməsi təhsilin inkişafı proqramları sahəsi üzrə mühüm vəzifələrdəndir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları demişdir ki, qloballaşma təbii prosesdir və yəqin ki, bu proses müəyyən düzəlişlərlə davam edəcəkdir. Xüsusilə belə olan halda milli dəyərlərə önəm vermək, gənc nəsli milli dəyərlər əsasında tərbiyə etmək xüsusi əhəmiyyət daşıyır. Mən çox şadam ki, Azərbaycanda milli ənənələr güclənir, möhkəmlənir və bu prosesləri daha da sürətləndirmək üçün kompleks tədbirlər görülməlidir. Əlbəttə, təhsil bu işlərdə ən prioritet məsələdir.

Son illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının apardığı sosial siyasət bunu təsdiq edir ki, yaxın zamanlarda bizim müəllimlərin sosial vəziyyəti digər qabaqcıl ölkələrin müəllimlərinin vəziyyətinə bərabərləşəcək. Ölkəmizin dinamik inkişaf edən iqtisadi potensialı bunu həyata keçirməyə real zəmin yaradır. Son illərdə hökumətimiz tərəfindən pedaqoji işçilərin əmək haqlarının sistemli və mütəmadi şəkildə artırılması dediklərimizi bir daha təsdiq edir.

Akademik R. Ə. Mehdiyev "İctimai və humanitar elmlər: zaman konteksində baxış" məqaləsində yazır: "Qloballaşma, informasiya texnologiyaları, internetin hökmranlığı əsrində təlim-tədris prosesini köhnəlmiş meyarlarla qurmaq mümkün deyildir. Müasir reallıq aparıcı dövlətlərdə ictimai-siyasi və humanitar sahələrdə islahatların fəlsəfəsini, cəmiyyətdə rolunu və statusunu köklü surətdə dəyişmiş, bu sahədə potensial artıq strateji resursa çevrilmişdir".

Təhsilin modernləşdirilməsi milli ənənələr kontekstində müstəqil düşüncə predmeti idisə, yeni mərhələdə islahatların parametrləri müəyyən dərəcədə Avropa təhsil sistemi tərəfindən müəyyən olunur.

Ali təhsilin modernləşdirilməsinin əsas məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Boloniya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə (həmçinin) informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılmasıdır. Azərbaycanda pedaqogika elminin inkişafını şərtləndirən, onun inkişafını təmin edən əsas amillərdən biri də elmi-pedaqoji kadr hazırlığıdır. Elmi-pedaqoji kadr hazırlığının əsas məqsədi təhsil işçilərinə pedaqogika, didaktika, psixologiya, defektologiya üzrə yenilikləri çatdırmaqla, təhsilin elmi əsaslar üzrə idarə olunmasını təmin etmək və ali məktəblərin professor-müəllim heyətinin peşəkarlıq səviyyəsini yüksəltməkdən ibarətdir. Ali təhsil islahatının yaxın və uzaq perspektivdə həyata keçirilməsi keyfiyyətli elmi-pedaqoji kadrların hazırlanmasından asılıdır. Buna görə də elmi-pedaqoji kadrların hazırlanması üçün lazımi şərait yaradılır, professor-müəllim heyətinin yeniləşməsinə və gəncləşməsinə diqqət yetirilir. Nəticədə təhsil sahəsində çalışan professor-müəllim heyətinin peşəkarlıq səviyyəsi yüksəlir. Ali pedaqoji məktəblərin pedaqogika kafedralarını, Azərb. ETPEİ-nin (indiki Təhsil İnstitutu) müvafiq şöbələrini zəruri səriştəyə malik elmi və elmi-pedaqoji kadrlarla təchiz etmək yüksək ixtisaslı kadr hazırlığının mühüm tərkib hissəsi kimi həmişə diqqət mərkəzində olmuşdur.

Azərbaycanda elmi-pedaqoji kadr hazırlığının ilkin mərhələsi XX əsrin 20-ci illərinin ikinci yarısına təsadüf edir, ancaq o dövrdə elmi-pedaqoji kadr hazırlığının qaydasını, formalarını və müddətini dəqiq müəyyən edən normativ sənədlər olmadığından "elmi əməkdaş", "elmi işçi", "aspirant" kimi anlayışlar arasında dəqiq fərq qoyulmamış, onların hüquq və vəzifələri müəyyən edilməmişdir. O zamanlar elmi işçilərin hazırlanması üçün maliyyə vəsaiti də ayrılmırdı.

1929-cu il mayın 18-də respublika XMK nəzdində Dövlət Elm Şurası elmi işçilərin hazırlanması haqqında əsasnamə təsdiq etdi. Əsasnamədə göstərilirdi ki, aspiranturada təhsil müddəti 3 ildir. Aspirant həmin müddət ərzində elmi işini hazırlamalı və fakültənin açıq iclasında onu müdafiə etməlidir. Aspirant elmi işlə yanaşı, təhsil illərində rus dilini, azərbaycanlı olmadığı təqdirdə Azərbaycan dilini, həm də milliyətindən asılı olmayaraq xarici dillərdən birini öyrənməli idi. 30-cu illərə kimi Azərbaycanda pedaqoji elmlər üzrə yüksək ixtisaslı mütəxəssislər hazırlayan müəssisə olmadığından, müəllim kadrları hazırlayan ali məktəblər

pedaqogika elminin qarşısında duran vəzifələri yerinə yetirə bilmirdi. Gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olan qabaqcıl müəllimlərin təcrübəsini ümumiləşdirməyə, pedaqogikanın elmi-nəzəri problemlərini, tərbiyə nəzəriyyəsini və didaktikanın mühüm problemlərini araşdırmağa ciddi ehtiyac duyulurdu. Bunun üçün həmin problemlə məşğul olan xüsusi elmi-tədqiqat müəssisəsinin yaradılması vacib idi.

**1931-ci ildə təsdiq olunan Azərbaycan Elmi-Tədqiqat Pedologiya İnstitutunda 1932-ci ildə aspirantura yaradıldı.**

Azərbaycan Respublikası Bakı şəhəri Xalq Maarifi Şöbəsinin 1930-cu il 30 iyun tarixli 30 nömrəli və Xalq Maarifi Komissarlığının 1931-ci il 29 iyun tarixli 87 nömrəli əmrinə əsasən 1931-ci il iyulun 1-də təhsil sahəsində ilk elmi tədqiqat institutu Azərbaycan Elmi-Tədqiqat Pedalogiya İnstitutu yaradılmışdır. İnstitutun adı, onun fəaliyyət istiqamətləri bir neçə dəfə dəyişdirilmişdir:

- 1931-ci il iyulun 1-dən 1932-ci ilin oktyabr ayınadək “Azərbaycan Elmi-Tədqiqat Pedologiya İnstitutu”;
- 1932-ci il oktyabr ayından 1934-cü ilin oktyabr ayınadək “Azərbaycan Pedologiya və Pedaqogika İnstitutu”;
- 1934-cü il oktyabr ayından 1934-cü ilin dekabr ayınadək “Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu”;
- 1934-cü ildən 1936-cı il avqust ayınadək “Azərbaycan Pedologiya və Pedaqogika İnstitutu”;
- 1936-cı il avqust ayından 1937-ci ilin dekabr ayınadək “V.İ.Lenin adına Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu”;
- 1938-ci il yanvar ayından 1938-ci ilin iyun ayınadək “Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutu”;
- 1938-ci il iyun ayından 1946-cı ilin yanvar ayınadək “Azərbaycan SSR Maarif Nazirliyinin Azərbaycan Dövlət Elmi-Tədqiqat Məktəblər İnstitutu”;
- 1946-cı ilin yanvar ayından 1951-ci ilin yanvar ayınadək “Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutu”;
- 1951-ci ildən 1977-ci ilin mart ayınadək ”Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu”;
- 1977-ci ilin mart ayından 2000-ci ilin iyun ayınadək “Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu”;
- Azərbaycan Respublikasının Prezidentinin 13 iyun 2000-ci il tarixli 349 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin nəzdindəki Elmi-Metodik Mərkəz və Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun bazasında Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu yaradılmışdır.

- Azərbaycan Respublikasının Prezidentinin 16 noyabr 2016-cı il tarixli Fərmanı ilə "Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsaslanaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun adı dəyişdirilərək Azərbaycan Respublikasının Təhsil İnstitutu adlandırılmışdır.

İlk dövrdən aspiranturaya ən bacarıqlı, istedadlı gənclər (Əhməd Seyidov, Mehdi Mehdizadə, Məmmədsəlim Tahirli, Zümrüd Axundova, Qulam Hüseynov və b.) qəbul olunmuşdur. Sonralar (məsələn, 1935-ci ildə) aspiranturaya, əsasən, bir neçə il İnstitutda fəaliyyət göstərmiş şəxslər (Mərdan Muradxanov, Vəlixan Mustafazadə, Əliş Həsənov, Əmir Tağıyev, İsmayıl Mərdəliyev, Surxay Hacıyev, Mirzəağa Quluzadə və b.) qəbul edilmişlər. Həmin şəxslər alimlik dərəcəsi aldıqdan sonra pedaqoji elmlərin, ədəbiyyatın inkişafında böyük xidmət göstərmişlər. Elə həmin ildə İnstitut əməkdaşlarından Qulam Məmmədov, İsgəndər Novruzov, Aleksey Loqinov və b. qiyabi aspiranturaya qəbul olunmuşlar.

İlk aspirantlardan Ə. Seyidov, M. Mehdizadə və başqalarına keçmiş SSRİ-nin mərkəzi şəhəri olan Moskva alimləri rəhbərlik edirdilər. 1935-ci ildə Əli Abdullayev Moskva Elmi-Tədqiqat Fiziologiya İnstitutunun aspiranturasına göndərildi. 1936-cı ildə aspirant O. M. Çeqlakova Moskvada psixologiya üzrə namizədlik dissertasiyasını müdafiə etdi.

Keçən əsrin 30-40-cı illərində pedaqogika ixtisası üzrə aspirantura xətti ilə elmi və elmi-pedaqoji kadr hazırlığında obyektiv və subyektiv xarakterli çətinliklər mövcud idi. Belə ki, aspirantların bəzilərinin təhsil hazırlığının kifayət qədər olmaması, rus və xarici dilləri zəif bilməsi başqa dillərdəki ədəbiyyatlardan istifadəni çətinləşdirir, onların ixtisas səviyyələrinə mənfi təsir göstərməklə, fərdi hazırlıq planlarının yerinə yetirilməməsi ilə nəticələnirdi. Başqa bir çətinlik isə pedaqoji elmlər üzrə yüksək ixtisaslı elmi rəhbərlərin - elmlər doktorlarının, professorların yoxluğu ilə bağlı idi.

1939-cu ildə aspirantura xətti ilə elmi kadrların hazırlanmasına diqqət daha da artırıldı. Aspirantların bəziləri (M. Muradxanov, V. Mustafazadə, Ə. Tağıyev, Ə. Həsənov və b.) bir il müddətinə Leninqrada, A. İ. Gertsen adına Pedaqoji İnstitutun aspiranturasına göndərilmişdilər. Onların yüksək ixtisaslı alimlərin rəhbərliyi altında yetişdirilmələri üçün hər cür şərait yaradılmışdı. Leninqradın görkəmli pedaqoqlarından Ş.İ. Qanelin, Y.Y. Qolant, L.Y. Raskin, İ.V. Svadkovski və M.M. Rubinşteynin rəhbərliyi və yaxından köməyi həmin aspirantların bacarıqlı tədqiqatçı kimi yetişmələrinə güclü təsir göstərdi. Onlar Leninqraddan qayıtdıqdan sonra ciddi tədqiqata girişdilər və ilk növbədə pedaqogikanın nəzəri problemlərini, o cümlədən kommunist tərbiyəsi və Azərbaycan pedaqoji fikrin tarixi məsələlərini

işləməyə başladılar. Həmin dövrlərdə sovet rus alimlərinin köməyindən daha çox istifadə edilmişdir.

Aspiranturaya, bir qayda olaraq, ən azı iki il maarif sahəsində iş stajına malik olan, elmi axtarışlara böyük həvəs göstərən səriştəli müəllimlər, ali məktəbi fərqlənmə diplomu ilə bitirən tələbələr qəbul edilirdilər. Onlar pedaqogikanın tarixi və nəzəriyyəsi, psixologiya, defektologiya, sosiologiya və xüsusi metodikaların aktual problemləri üzrə tədqiqat aparırdılar.

Aspirantlara rəhbərlik işinə İnstitutun bir sıra təcrübəli əməkdaşları ilə yanaşı, Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və digər ali təhsil müəssisələrinin görkəmli alimləri cəlb edilmişdilər.

Aspirant və dissertantlar üçün İnstitutda gənc alimlər şurası fəaliyyət göstərirdi. Bu şuranın məşğələlərində elmi-tədqiqatın metodoloji əsasları, pedaqoji tədqiqatın metodları, təcrübi materialların işlənməsi, alınmış nəticələrin təcrübədə sınaqdan keçirilməsi və s. məsələlər üzrə mühazirələr oxunmuş, həmçinin, işgüzar söhbətlər təşkil edilmişdi. Bu mühazirə və məsləhətlərə respublikanın görkəmli pedaqoq, psixoloq və metodistləri cəlb olunmuşdular.

II dünya müharibəsindən sonra respublikamızda getdikcə inkişaf edən pedaqoji institutların və pedaqoji elmin tələbatını təmin etmək məqsədilə pedaqoji elmlər sahəsində kadr hazırlanması sürətlə genişləndi, pedaqoji elmlər namizədlərinin sayı ildən-ilə artdı, pedaqoji elmlər üzrə doktorların yetişməsinə şərait yarandı. Dövlət və hökumət orqanları elmi və elmi-pedaqoji kadr hazırlığını genişləndirmək məqsədilə müvafiq qərar və sərəncamlar qəbul etdilər. 1944-cü il yanvarın 2-də SSRİ Xalq Komissarları Soveti yanında Ümumittifaq Ali Məktəb İşləri Komitəsinin "Ali məktəblərdə aspirantlar hazırlanmasını yaxşılaşdırmaq tədbirləri haqqında" əmrində aspirantların müsabiqə yolu ilə seçilməsi, müttəfiq və muxtar respublikaların ali məktəblərinin aspiranturasına yerli millətdən olan şəxslərin qəbuluna üstünlük verilməsi məqsədəuyğun hesab olundu.

Ötən əsrin 60-cı illərin ikinci yarısında respublikada pedaqoji elmlər üzrə elmi-pedaqoji kadr hazırlığında ixtisaslaşdırılmış müdafiə şuralarının yaradılması və ADU-nun müdafiə şurasına pedaqoji elmlərin müvafiq problemləri üzrə doktorluq dissertasiyalarının müdafiəsini təşkil etmək hüququnun verilməsi pedaqoji elmlərin inkişafını şərtləndirən əsas amillərdən birinə çevrilməklə, respublikanın elmi-pedaqoji həyatında böyük canlanma yaratdı, elmi-pedaqoji kadr hazırlığının yeni sistemi formalaşmağa başladı. 60-cı illərdə və 70-ci illərin birinci yarısında elmi və elmi-pedaqoji kadrların hazırlanmasının müxtəlif problemləri ilə əlaqədar rəsmi dövlət orqanlarının diqqət və qayğısını ifadə edən mühüm qərarlar qəbul edildi. Bu qərarların məntiqi nəticəsi olaraq elmi və elmi-pedaqoji kadr

hazırlamağın əsas vasitəsi olan aspiranturada təhsil alanların sayı artdı, kadr hazırlığı respublikanın ali pedaqoji məktəblərinin tələbatına uyğun davam etdirildi.

Doktorant və dissertant hazıtlığında mühüm mərhələ onların dissertasiya mövzularının düzgün seçilməsi ilə bağlıdır. Düzgün tərtib olunan plan dissertasiya işinin vacib tərkib hissəsidir. Təkrar tədqiqat mövzularına yol verilməməsi məqsədi ilə 1970-80-ci illərdə Azərbaycan ETPEİ-də Pedaqoji və Psixoloji elmlər üzrə Elmi-Tədqiqatları Əlaqələndirmə Şurası yaradıldı. Bu, pedaqoji elmlərin inkişafında və elmi-pedaqoji kadr hazırlığında xüsusi mərhələ hesab olunmalıdır. 1974-cü ildə yaradılan həmin Şuranın ilk sədri prof. Nürəddin Kazımov, sonra prof. Zahid Qaralov olmuşdur. Müxtəlif illərdə prof. Y.Ş. Kərimov, Ş. Mikayılov, A.O. Mehrabov Şuraya rəhbərlik etmişlər. Qısa müddətdə Şuranın işində fasilə əmələ gəlmiş və Şuranın İnstitutdan alınması təhlükəsi yaranmışdı. Lakin Təhsil Problemləri İnstitutunun direktoru olmuş Qulu Novruzovun gərgin əməyi nəticəsində Şura İnstituta qaytarıldı. Hazırda Təhsil Tədqiqatları üzrə Problem Şurasına pedaqogika üzrə elmlər doktoru, professor İntiqam Cəbrayılov rəhbərlik edir.

Elmi dərəcə və elmi adların verilməsini təsdiq edən SSRİ AAK-sı 1932-ci ildə yaradılmış, 1934-cü ildə fəaliyyətə başlamışdı. SSSR AAK 1974-cü ilədək SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi yanında olmuş, Sov. İKP MK-nın və SSRİ Nazirlər Sovetinin "Elmi və elmi-pedaqoji kadrların attestasiyasını daha da təkmilləşdirmək tədbirləri haqqında" qərarına əsasən SSRİ Nazirlər Soveti yanında AAK-na çevrilmişdi. SSRİ AAK-sı 1992-ci ilə kimi Azərbaycanın ali məktəb və elmi-tədqiqat institutları elmi şuralarının qərarına əsasən alimlik dərəcələrini təsdiq etmiş, respublikamızda yaradılan şuralara doktorluq və namizədlik dissertasiyalarını müdafiə etmək hüququ vermiş, onların tərkibini təsdiq etmişdir. Hazırda bu işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası həyata keçirir.

Pedaqoji və psixoloji elmlər üzrə elmi tədqiqatların əlaqələndirilməsində Şura faydalı işlər görmüş, sistematik olaraq hər il respublikanın ali pedaqoji məktəbləri, universitetləri, Azərbaycan ETPEİ (hazırki Təhsil İnstitutu), MMTİ (keçmiş Azərbaycan Müəllimlər İnstitutu) və digər institutlarda işlənilən yüzlərlə elmi-tədqiqat mövzularını əlaqələndirərək onların vahid planını tərtib etmiş, mövzu seçmək işində tez-tez təsadüf olunan təsadüfiliyə, paralelçiliyə, təkrarçılığa yol verilməməsinə çalışmış, namizədlik və doktorluq dissertasiyalarının mövzularının aktuallığına, nəzəri və praktik əhəmiyyətinə nəzarət etmiş, kollektiv və kompleks tədqiqatlar şəbəkəsini genişləndirmişdir.

Elmi-pedaqoji kadr hazırlığında, aspirant və dissertantların elmi hazırlıq səviyyəsinin yüksəldilməsində 1978-ci ildən başlayaraq hər il keçirilən ali məktəb aspirantlarının respublika elmi konfransı da böyük rol oynayır. Gənc

tədqiqatçıların elmi yaradıcılıqlarının hesabatına çevrilən belə ənənəvi konfranslar elmin başqa sahələri ilə yanaşı, pedaqogikanın nəzəriyyəsi və tarixinin müxtəlif istiqamətləri və problemləri üzrə geniş elmi fikir mübadiləsinə meydan açır. İnstitutun aspirant (doktorant) və dissertantları həmin tədbirlərdə fəal iştirak edirlər.

Müəllimlərin və alimlərin diqqətini cəlb edən, iş təcrübəsi qazanmış, elmi axtarışlara ciddi maraq göstərən qabaqcıl müəllimlər, məktəb rəhbərləri beş il müddətinə İnstitutun müvafiq şöbələrinə təhkim olunur, elmi məsləhətçilərin köməyi ilə müəyyən prob¬lem üzrə tədqiqat aparır və müvəffəqiyyətlə namizədlik dissertasiyasını müdafiə edirlər. İndiyə qədər bu yolla namizədlik dissertasiyasını müdafiə edənlərin sayı 250-ni keçmişdir. Hal-hazırda 100 nəfər qabaqcıl müəllim, tərbiyəçi, məktəb rəhbəri, elmi işçi İnstitutun dissertantıdır.

Aspirant və dissertantların səmərəli fəaliyyət göstərmələrinə elmi rəhbərlər faydalı məsləhətləri ilə yaxından kömək göstərirlər. Xüsusilə Azərbaycan Milli Elmlər Akademiyasından akademik R.M. Əliquliyev, M.M. Abbasov, Rusiya Təhsil Akademiyasından akademik Ş.A. Amonaşvili, H.H. Əhmədovun, İnstitutun professorlarından Y.Ş. Kərimov, Ş.A. Mikayılov, V.C. Xəlilov, A.N. Abbasov, P.B. Əliyev, İ.H. Cəbrayılov, R.İ. Əliyev; Bakı Dövlət Universitetinin professorlarından H.Ə. Əlizadə, M.Ş. Babayev, Ə.Ə. Əliyev, K.İ. Xudaverdiyev, A.C. Hacıyev; Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorlarından F.A. Rüstəmov, M.S. Cəbrayılov, Ə.T. Baxşəliyev, S.M. Quliyev, S.S. Həmidov, A.S. Adıgözəlov, Q.E. Əzimov, M. Əmirov, M.İ. İlyasov, R.L. Hüseynzadənin, dosentlərindən Ə.M. Abbasov, A.Hacıyev və başqalarının yetirmələri dissertasiyalarını vaxtında və uğurla müdafiə etmiş, digərləri isə tədqiqatlarını davam etdirirlər.

Hazırda İnstitutda çalışan elmi işçilərin əsas hissəsi onun aspiranturasının yetişdirməsidirlər. İnstitutun hazırladığı yüksək ixtisaslı kadrlar eyni zamanda respublikamızın müxtəlif pedaqoji və elmi müəssisələrində, eləcə də Azərbaycan Respublikasının Təhsil Nazirliyində çalışırlar, həmçinin, AMEA-da akademiya üzvü kimi təmsil olunurlar.

İnstitutun yetirmələri respublikanın müxtəlif elmi və pedaqoji təhsil müəssisələrində elmi işçi, baş müəllim, dosent, professor, kafedra müdiri, prorektor və rektor kimi fəaliyyət göstərirlər.

Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli sərəncamı ilə yaradılan Təhsil Problemləri İnstitutunun (AR TPİ) keçmiş **aspirantura şöbəsinin** bazasında yeni yaradılmış **Elmi-pedaqoji kadrların hazırlanması şöbəsinin adı** 2014-cü ildə İnstitutda aparılan struktur dəyişikliyindən sonra redaktə olunur və **Elmi-pedaqoji kadr hazılığı şöbəsi** kimi fəaliyyətini uğurla davam etdirir. Elmi-pedaqoji kadr hazılığı şöbəsi Azərbaycan Respublikasının

Təhsil İnstitutunun struktur vahidi olub, onun nizamnaməsində formalaşmış ümumi və öz əsasnaməsinə uyğun vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayır. Şöbə işini İnstitutun nəzdində olan bütün şöbələrin müvafiq əməkdaşları, elmi müxbirləri, doktorant və dissertantları ilə əlaqələndirir, fəlsəfə və elmlər doktoru proqramları üzrə doktorant və dissertant hazırlığına rəhbərlik edir.

Elmi-pedaqoji kadr hazırlığı şöbəsi AR Tİ-nin struktur şöbəsi olaraq ölkənin ali təhsil müəssisələri, AMEA-nın institutları, təhsil mərkəzləri və qurumları ilə yaxın əməkdaşlıq edir. Həmçinin, yerli və xarici (dövlət və özəl olmaqla) təhsil sisteminin idarəetmə strukturlarının doktorantura şöbələri ilə əməkdaşlığını qurur, müvafiq sahə üzrə təhsil sahəsində maarifləndirmə mexanizmini hazırlayır. Beynəlxalq əməkdaşlığa əsasən universitetlərarası və qurumlararası ikitərəfli razılaşmalar, anlaşma memorandumları, əməkdaşlıq protokolları və digər bu kimi hüquqi vasitələr çərçivəsində həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli qərarı ilə Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunda fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə doktorant və dissertant hazırlığına icazə verilmişdir.

İnstitutun adı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli qərarı ilə təsdiq edilmiş doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və elmi təşkilatların siyahısında da yer almışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının fəaliyyətini tənzimləyən müvafiq hüquqi aktların təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 21 fevral tarixli 857 nömrəli Fərmanı ilə təsdiq edilmiş, 2008-ci il 5 iyun tarixli 769 nömrəli və 2011-ci il 15 fevral tarixli 381 nömrəli Fərmanları ilə əlavələr və dəyişikliklər edilmiş (əlavə II) və qeyd edilmişdir ki, doktorantura hazırlığı ali təhsilin üçüncü səviyyəsidir və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş doktorantura ixtisaslarının (proqramlarının) təsnifatına uyğun müvafiq ixtisaslar üzrə geniş profilli alim və mütəxəssis hazırlığının həyata keçirilməsini təmin edir.

Doktoranturada təhsil **fəlsəfə doktoru və elmlər doktoru** proqramları üzrə həyata keçirilir. Elmi dərəcələrin və elmi adların verilməsi qaydaları haqqında Əsasnamənin 2-ci, 4-cü və 38-ci bəndlərinə əsasən fəlsəfə doktoru elmi dərəcəsi iddiaçılarına dissertasiyalarının müdafiəsindən sonra dissertasiya şuralarının təqdim etdiyi vəsatət əsasında, 4-6 ay ərzində baxılaraq, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən müəyyən edilmiş nümunədə diplom verilir.

Hazırda doktorantlarımız öz tədqiqatlarını internet vasitəsilə dünyaya təqdim edə bilirlər. Son iki ildə onlarla doktorant və dissertant təhsil müddətindən xeyli əvvəl dissertasiyalarını tamamlayaraq müdafiə şuralarına təqdim etmiş, müdafiə etmiş və diplomlarını almışlar. Onlar xarici dillərə yiyələnərək yaxın və uzaq xarici ölkələrdə Azərbaycan xalqını, onun elminin inkişafını, milli-mənəvi dəyərlərini, tolerantlıq və multikultural dəyərlərini, adət-ənənələrinin bəşəri xüsusiyyətlərini şərəflə təqdim və təbliğ edirlər. Bu elmi zəfərlərə aparan şərəfli yolda bütün tədqiqatçılara yeni yaradıcılıq uğurları ilə yanaşı əzmkar olmağa çağırırıq.

Hümeyir Əhmədov
pedaqogika üzrə elmlər doktoru, akademik
əməkdar elm və təhsil xadimi